**Əliağa Bayram oğlu ƏZIMZADƏ**
Qərbi Kaspi Universitetinin doktorantı
E-mail: eliaga.ezimzade.phd@wcu.edu
ORCID ID - 0000-0001-5071-2418

# QLOBALLAŞMA HAQQINDA NƏZƏRI BAXIŞLARIN MÜQAYISƏLI TƏHLILI

**Xülasə**

21-ci əsrin texnoloji inkişafı məsafələri qısaltmış, pul və əmtəə dövriyyəsini artıraraq qloballaşma prosesini daha da sürətləndirmişdir. Ötən əsrin ortalarında meydana çıxan qloballaşma anlayışı bugün bir çox sahələrdə fərqli mənalarda istifadə edilir. Buna səbəb qloballaşma haqqında fərqli fikir və yanaşmaların mövcudluğudur. Bəzi nəzəri baxışlarda qloballaşma ölkələri və insanları yaxınlaşdıran müsbət inteqrasiya prosesi kimi qiymətləndirilsə də, qloballaşmanı "amerikanlaşma", "kapitalizmin yeni mərhələsi", "qərbləşmə" kimi görənlər də az deyil. Məqalədə qloballaşma anlayışının tarixinə qısa nəzər salınmış və qloballaşmaya fərqli yanaşmaları ifadə edən müxtəlif təriflər göstərilmişdir. Qloballaşmaya yanaşmalar üç əsas qrupa ayrılaraq qloballaşmanı tarixin yeni mərhələsi olaraq görən ifrat qloballaşma tərəfdarlarını, ona keçmişdən mövcud olan bir proses kimi yanaşanlar və mövcud sistemi dəyişəcəyinə inanları özündə ehtiva edir. Qloballaşma prosesinə tənqidi yanaşaraq onu birqütblü proses kimi deyil qarşılıqlı inteqrasiya prosesi kimi görmək istəyənlər anti-qloballaşma hərakatı adı altında birləşiblər. Məqalədə anti-qloballaşma hərakatının tarixinə nəzər salınmış, hərakat iştirakçılarının qloballaşmaya qarşı iddiaları və hərakatın məqsədləri qeyd olunmuşdur. Çünki anti-qloballaşma hərakatının iştirakçıları qloballaşmanın tamamilə əleyhinə deyillər. Əksinə onlar iqtisadiyyatın, texnologiyanın, mədəniyyətlərin inteqrasiyasının təşviq edilməsinin tərəfdarlarıdır. Qloballaşma əleyhdarları kimi tanınan bu qrup qloballaşma altında imperializm siyasətinin həyata keçirilməsinə etiraz edir. İstər qloballaşma tərəfdarları istərsə də anti-qlobalistlər qloballaşmanı bir imkan olaraq qəbul edərək insanların rifahı və ümumbəşəri məqsədlərə çatmaq üçün ondan düzgün istifadə olunmasını vurğulayırlar.

**Açar sözlər:** Qloballaşma, anti-qloballaşma, hiperqlobalistlər, skeptiklər, transformerlər

**JEL:** E 00
**UOT**: 338
**DOI:** https://doi.org/ 10.54414/TLOG1601

**Giriş**

XX əsrin sonundan başlayaraq ictimai həyatda və elmi ədəbiyyatlarda "qloballaşma" termininə tez-tez rast gəlinir. Qloballaşma termini elmi ədəbiyyatda ilk dəfə 1964-cü ildə nəşr olunan "Medianı anlamaq: İnsanın davamı" adlı əsərində Herbert Marşal Makluan tərəfindən istifadə olunmuşdur. Harvard Biznes Məktəbinin əsas simalarından olan, tanınmış marketinq mütəxəssisi Teodor Levit 1983-cü ildə "Harvard Business Review" jurnalında nəşr olunan "Bazarların qloballaşması" adlı məqaləsi ilə qloballaşma anlayışının tanınması və yayılmasında vacib rol oynamışdır. [1, s.8] Digər bir mənbəyə görə isə qloballaşma anlayışı ilk dəfə ingilis iqtisadçısı U.Foterin 1833-cü ildə yazdığı dünyada resursların bölüşdürülməsi və istifadəsi ilə bağlı məqalədə istifadə edilmiş və daha sonra 4 aprel 1959-cu ildə "The Economist" jurnalında dərc edilmişdir. [2, s.116] Qloballaşma anlayışı haqqında təriflər müxtəlif elm sahələrinin mütəxəssisləri tərəfindən irəli sürüldüyündən ona vahid tərif vermək mümkün olmamışdır. Çünki qloballaşma bir çox sahələrə öz təsirini göstərmiş, fərqli elmlərin maraq dairəsinə daxil olmuşdur. Elmi ədəbiyyatları araşdırarkən qloballaşmaya müxtəlif elmi prizmalardan, fərqli istiqamətlərdən yanaşıldığının və ona fərqli təriflər verildiyinin şahidi oluruq. "The Economist" jurnalı qloballaşmanın 5000-dən çox tərifinin olduğunu bildirir. [3] Bu təriflər arasında qloballaşma prosesinə müsbət yanaşanlar, onu ölkələrin bir-birinə yaxınlaşması, inteqrasiyası kimi qiymətləndirənlər olduğu kimi, qloballaş-

manın bir qütblü proses, “qərbləşmə”, “amerikanlaşma” və imperializmin yeni modeli olması ilə bağlı fikirlər də az deyil. Qloballaşma mövzusunda ona şübhə ilə yanaşanlar- skeptiklər və dəstəkləyənlər-qlobalistlər arasında davam edən bu fikir ayrılıqları Devid Held və Antoni Makqryu tərəfindən “qlobal mübahisə” olaraq adlandırılmışdır.

**Qloballaşmaya fərqli yanaşmalar**

Held və Makqryu öz tədqiqatlarında qloballaşmaya yanaşmaları ümumi olaraq 3 qrupa bölüblər:

1) Hiperqlobalistlər
2) Skeptiklər
3) Transformerlər [4, s.177]

**Hiperqlobalistlər**- yaxud ifrat qlobalistlər qloballaşmanı milli dövlətlərin artıq öz effektivliyini itirdiyi və qlobal iqtisadi sistemin bir elementinə çevrildiyi bəşər tarixinin yeni dövrü kimi izah edirlər. Onlara görə qloballaşma tarix boyunca var olan bir prosesdir və qədim dövrlər onun ilk mərhələsidir. Bu yanaşmalar qloballaşma prosesini daha çox iqtisadi cəhətdən qiymətləndirir. Buna görə də bir çox hiperqlobalist nəzəriyyəçilər qloballaşmanın dövlətləri zəiflətdiyini və əvəzinə siyasi, iqtisadi, mədəni tərəfləri ilə yeni qurumlar formalaşdırdığını müdafiə edirlər. [4, s.165]

**Skeptiklər** – Hiperqlobalist yanaşmanın əksi olan bu yanaşma qloballaşmaya şübhə ilə yanaşaraq onun yeni bir proses olmadığını qeyd edirlər. Skeptiklər yüz il əvvəl dünya iqtisadiyyatında baş verən dəyişikliklərin yenidən yaşandığını və bu səbəbdən də qloballaşmanın yeni bir hadisə olduğunu qəbul etmirlər. Onların fikrincə, əgər yaşadığımız dövrdəki iqtisadi inteqrasiyanı 19-20-ci əsrlərin klassik qızıl dövrü ilə müqayisə etsək o zaman dünyanın indiki ilə müqayisədə iqtisadi cəhətdən daha çox inteqrasiya etdiyi aydın olar.

**Transformerlər** – qloballaşma öz başına müasir cəmiyyətləri və dünya nizamını təkrar formalaşdıran bir quruluşdur. Onlara görə qloballaşma yeni minillikdə baş verən texnoloji, ictimai, mədəni və iqtisadi yeniliklərin əsas təkanverici qüvvəsidir. Transformerlər qloballaşmanın milli dövlətlərin gücünü, səlahiyyətlərini və funksiyalarını yenidən formalaşdırdığını müdafiə edirlər.

Qloballaşma anlayışının daha yaxşı anlaşılması üçün özündə müxtəlif yanaşmaları əks etdirən bir neçə tərif vermək yerində olar. Bəzi tariflərə nəzər saldıqda qloballaşmaya yeni beynəlxalq sistem və ya bütün dünyanı təsir altına alan bir proses kimi yanaşmaların şahidi ola bilərik. Məsələn, Tomas Fridmana görə qloballaşma sadə bir fenomen yada müvəqqəti proses deyil soyuq müharibə sistemini əvəz edən yeni beynəlxalq sistemdir. [5, s.8] Onun fikrincə qloballaşma bazar iqtisadiyyatın bütün dünyaya yayılmasıdır. [5, s.31] Aydın Fındıkçının fikrinə görə isə soyuq müharibədən sonra dünya iqtisadiyyatında baş verən inkişaf və dəyişikliklər qloballaşma adı altında izah olunur. [6, s.21] Vayn Elvudun fikrincə qloballaşma qədim prosesə verilən yeni addır. Belə ki, 500 il əvvəl Avropa müstəmləkəçiliyi ilə birgə iqtisadiyyatda başlanan bütünləşmə sonralar qloballaşma adlandırılmışdır. [7, s.35] Kalemciyə görə isə qloballaşma ölkələr arasında iqtisadi maneələrin aradan qaldırılması ilə tarixin ən böyük iqtisadi hərəkətliliyinin baş verməsi hadisəsidir. Giddensə görə qloballaşma bir ölkədə meydana gələn hadisələrin başqa yerlərə də təsir göstərməsidir. Ohmae isə qloballaşmanı hər şeyi dəyişdirən, dövlətlərin və ittifaqların ona qarşı heçnə edə bilməyəcəkləri qəti proses kimi təsvir etmişdir. [8, s.42] Digər tərəfdən qloballaşmanı qlobal cəmiyyətin formalaşması, vahid dünya bazarının yaranması, dünya miqyasında bütünləşmə prosesi kimi qiymətləndirən yanaşmalar da az deyildir. BMT-nin İnsan İnkişafı Hesabatına (2000) görə qloballaşma, sadəcə əmtəə və xidmətlərin dünya miqyasında sərbəst hərəkəti olmayıb, həmdə dünyadakı bütün insanların qarşılıqlı asılılığını ifadə edir. Qloballaşma təkcə iqtisadi deyil, eyni zamanda mədəni, texnoloji və idarəetmə baxımından da bütünləşmə prosesidir. Dünyanın ayrı-ayrı nöqtələrində baş verən hadisələrin hər kəsə təsir etdiyi bir prosesdir. [9, s.5] Vəliyev isə qloballaşmaya dünya təsərrüfatının vahid əmtəə, xidmət, kapital, işçi qüvvəsi və biliklər bazasına çevrilməsi prosesi kimi yanaşır. Onun fikrincə mürəkkəb və ziddiyyətli qloballaşma proseslərinin dərinləşməsi bəşəriyyətin ictimai və iqtisadi inkişafında yeni mərhələ yaratmış və “meqacəmiyyət” adlanan ümumbəşəri cəmiyyətin formalaşmasına yol açmışdır. [10, s.24] Məhdud mənada qloballaşma əmtəə və xidmətlərin bütün dünya miqyasında sərhədsiz hərəkətidir, geniş mənada isə bir fenomendir və universal siyasi, ictimai və mədəni dəyərlərin

milli sərhədləri aşaraq lokal norma və rutinlər halını almasıdır. [11, s.20] Qloballaşma iqtisadi, siyasi, sosial və mədəni sahələrdə bəzi dəyərlərin sərhədləri aşaraq dünya miqyasında yayılmasıdır. [12, s.24] Martin Albrou isə qloballaşmanı dünyadakı xalqların qlobal cəmiyyət olma istiqamətindəki fəaliyyətlərinin cəmi olaraq görür. Alman sosioloq Vilrix Bek qloballaşmanı hər hansı bir dövlətə və ya hökumətə bağlı olmayan dünya cəmiyyəti adlandırmışdır. R.M.Kanterin fikrincə qloballaşma şəraitində dünya məhsulların və düşüncələrin eyni zamanda hər yerdə mövcud olduğu qlobal bir bazara çevrilir. Bardhan qloballaşmanı əsas prinsip olaraq beynəlxalq iqtisadiyyata inteqrasiya, xarici ticarətə və investisiyalara açıq olmaq kimi qiymətləndirmişdir. [13, s.9] Qloballaşmaya pozitiv yanaşmalar içərisində onu yeni texnologiyaların tətbiqi və maneələrin aradan qaldırılması nəticəsində məsafələri "kiçildən" və ölkələri "yaxınlaşdıran", həmçinin ümumi rifaha səbəb olan bir proses kimi qiymətləndirən yanaşmalar da mövcuddur. C.Stiqlitzə görə qloballaşma beynəlxalq ticarətdə maneələrin aradan qaldırılması və ticarətin sərbəstləşməsi, milli iqtisadiyyatların inteqrasiyası nəticəsində hər kəsi xüsusilə kasıbları zənginləşdirəcək bir gücdür. C.Mittelmana görə isə qloballaşma sosial münasibətləri zaman və məkan cəhətdən sıxışdıraraq kiçildir. C.Adanın fikrincə qloballaşmadan bəhs etmək, iqtisadi bir sistem olan kapitalizmin bütün dünyaya yayıldığını qəbul etməkdir. [14, s.6]

Yuxarıda qeyd etdiyimiz kimi qloballaşmanın gözləniləniн əksinə olaraq müsbət istiqamətdə getmədiyini müdafiə edən qloballaşma əleyhdarları kimi Naomi Kleyn, Norena Hertz, Paul Hirst, Qraham Tompson, Cozef Stiqlitz, Maykl Hardt və Antonio Neqrinin adlarını çəkə bilərik. Qloballaşma əleyhdarlarından olan Çomski qloballaşmanı mənfəətpərəst meqabiznеslərin, totalitar qurumların tiranlığı olaraq təsvir etmişdir. [15, s.21] Boratova görə isə qloballaşma sadəcə yeni bir termindir. 20-ci əsrin əvvəllərində elmi terminologiyaya daxil olan imperializmin özüdür. İmperializm anlayışına hörmət qazandırmaq, imperializmin qarşısında çarəsizlik yaratmaq cəhdidir. [16, s.35] Qloballaşma dünyanın harasında bir dəyər varsa onun istehsal prosesində keçirilərək metaya çevirib bütün dünyaya satılması prosesidir. [17, s.26] Dicle qloballaşmanı dövlətlərin hegemoniyasının, bazar iqtisadiyyatında işsizliyin, bərabərsizliyin və etibarsızlığın get-gedə artdığı bir proses olaraq təsvir etmişdir. [18, s.56] Ekinə görə qloballaşma ölkə iqtisadiyyatların get-gedə bir-birinnən asılı vəziyyətə düşməsidir. Qloballaşmanın zəruri bir proses olduğunu müdafiə edənlərin yanıldığını, qloballaşmanın əslində "qlobal cəfəngiyyat" olduğunu düşünənlər də mövcuddur. [19, s.58] Bəzi marksist və sosialist elm adamlarının fikrincə qloballaşma yeni bir anlayış deyil, kapitalizmin genişlənməsi, dərinləşməsi və görkəmini dəyişdirərək maskalanmasıdır. O, yeni imperializm və yeni müstəmləkəçilik formasıdır. [20, s.23] Qloballaşma riskli bir prosesdir. Təkcə ona görə yox ki bu proses uğursuz ola bilər, həmdə ona görə ki bu proses uğurlu inkişafı bəşəriyyətin özünü məhv etməsini sürətləndirir. [21, s.10] Bəzi elm adamları qloballaşma ilə yerli mədəniyyətlərin transformasiyaya məruz qaldığını və ölkələrin mənəvi dəyərlərinin yox olduğunu müdafiə edirdilər. [22, s.241] Məsələn Kaplan iddia edir ki, qlobal bazarın yaratdığı demoqrafik və ekoloji dəyişikliklər milli dövlətin sonu və xaosun başlanğıcı ilə nəticələnəcək. [23, s.2227] Hantinqtona görə qloballaşma mədəniyyətlər arasında fərqliliklərə, qütbləşmələrə və münaqişələrə yol açmaqdadır. Qriffinə görə isə qloballaşma müxtəlif xalqların ənənəvi yaşam tərzlərini amerikan yaşam tərzi qarşısında zəiflətməkdir. [24, s.33] Hirst ve Tompson müəllifi olduqları "Qloballaşma sual altında" adlı kitabda bütünləşmiş dünya iqtisadiyyatının olmadığını, daha çox müxtəlif ölkə iqtisadiyyatlarından ibarət beynəlxalq iqtisadiyyat mövcudluğunu qeyd etmişdirlər. Onlara görə qloballaşmaya aid edilən bir çox iqtisadi fəaliyyət tarixdə müəyyən zamanlarda mövcud olmuşdur və dolayısı ilə qloballaşma yeni bir proses deyildir. [25, s.8] Sassen qloballaşmanın əslində "amerikanlaşma" olduğunu, Kalb isə qloballaşmanın dünyada gedən hüquqi, iqtisadi və digər bir sıra prosesləri amerikan və anglo-sakson modelinə saldığını qeyd edir. [26, s.17] Ritzer "Cəmiyyətin McDonaldslaşdırılması" adlı kitabında qloballaşma prosesinin Amerika cəmiyyətinin dünyanın digər hissəsi üzərində hegemoniyasına rəvac verdiyini qeyd etmişdir. Ritzerin fikrincə bu proses ancaq restoran sahəsini deyil cəmiyyətin bütün sahələrini öz təsiri altına almışdır. [27, s.23]

Amin qloballaşmanın yeni dünya nizamı deyil, qütbləşmə, bərabərsizlik və qlobal nizamsızlığa gətirib çıxaracağına inanır. Tatar qloballaşmanı Amerikanlaşma, kapitalizmin yeni şəkli kimi dəyərləndirir. [17, s.128] Mertona görə isə qloballaşma kapitalizmin və ya imperializmin yeni formasıdır. Henri Kissincer qloballaşmanı ABŞ-ın dominantlığının başqa adı adlandırmışdır. Onun fikrincə qloballaşma qaçılmazdır. O siyasətdən asılıdır, xüsusilə də ABŞ siyasətindən. [28, s.501] Qloballaşma bəzilərinə görə sərhədlərin mənasızlaşdığı bir dövrdür. [29, s.8] Mehmet Bayrakdara görə 1980-ci illərdən bugünə kimi istifadə olunan qloballaşma anlayışı əslində "qloballaşdırma"dır. Qloballaşma – əhali artımı, miqrasiya, ticarət və turizm kimi təbii hadisələr nəticəsində bəşəriyyətin bütünləşməsi prosesidir. Qloballaşdırma isə siyasi və ideoloji bir gücün müəyyən məqsədlər uğrunda planlı şəkildə həyata keçirdiyi prosesdir. [30, s.150] C.Soros isə qloballaşmanın investisiyanın sərbəst dövr etdiyi və milli iqtisadiyyatların qlobal maliyyə bazarları və transmilli korporasiyalar tərəfindən idarə olunduğu müvazinətsiz bir proses olduğunu müdafiə etmişdir. [31, s.9]

**Anti-qloballaşma hərakatı**

Yuxarıda qeyd etdiyimiz qloballaşma əleyhinə olan yanaşmalara əsaslanan və anti-qloballaşma adı verilən qlobal müxalifət mövcud neo-liberal qloballaşma yerinə ədalətli, demokratik və humanist qloballaşma prosesi tələb etməkdədir. Dünyanın müxtəlif nöqtələrində qeyri-hökumət təşkilatları, qruplar və icmalar qloballaşmanın səbəb olduğu yoxsulluq, gəlir bərabərsizliyi, əməyin istismarına qarşı mübarizə aparır. Beləki onlar Dünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Böyük Səkkizlik kimi qlobal təşkilatları və onların tədbirlərini protest edirlər. [32, s.3] Anti-qloballaşma hərakatının üzvləri qloballaşmanın 4 zəif cəhətini tənqid edirlər:

1) Legitimliyin olmaması
2) Hesabatlılığın olmaması
3) Təşkilatlanmanın olmaması
4) Şəffaflığın olmaması

Anti-qlobalistlərin qarşı olduğu əsas məsələlər: yoxsulluq, iqtisadi məsələlərdə dövlət müdaxiləsinin olmaması (laissez-faire), geni dəyişdirilmiş qidalar, müharibələr və qloballaşmanın təkanverici qüvvəsi olaraq gördükləri ABŞ-dır. Onlar iddia edirlər ki, Davos Forumu qlobal sosial problemləri ya görməməzliyə vurur, ya da daha da ağırlaşdıran qərarlar qəbul olunmasına səbəb olur. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Ümumdünya Ticarət Təşkilatı kimi qlobal iqtisadi təşkilatlar ümumiyyətlə demokratik məhdudiyyətlər olmadan fəaliyyət göstərirlər. Hətta böyük transmilli korporasiyalar yerli hökumətlərə onlara imtiyazlar verən qanunlar qəbul edilməsi üçün təzyiq göstərir. Anti-qlobalistlər tərəfindən təşkil olunan Porto Aleqre Forumu transmilli korporasiyaların səlahiyyətlərinin məhdudlaşdırılmasından tutmuş BMT, Beynəlxalq Əmək Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatı kimi beynəlxalq təşkilatlara yeni öhdəliklər və tənzimləyici səlahiyyətlərin əlavə edilməsinə qədər bir sıra tövsiyyələr vermişdir. Bu yolla antiqloballaşma hərəkatı milli və beynəlxalq səhnədə qloballaşma üzərində daha çox təsir rıçaqları əldə edə bilər. [33] Bəzən elmi ədəbiyyatlar anti-qloballaşma termininin əvəzinə "anti-korporasiya" və "anti-kapitalist" anlayışlarına da rast gəlmək mümkündür. Anti-qloballaşma hərakatının tarixinə nəzər saldıqda onun qloballaşma prosesi ilə eyni dövrdə formalaşdığını görə bilərik. Anti-qloballaşma hərakatlarının ilk qığılcımı kimi "Yavaş" (slow) hərakatını misal göstərə bilərik. Yavaş hərakatı anti-qloballaşma hərakatı olub İtaliyada meydana gəlmiş daha sonra bütün dünyaya yayılmışdır. 1986-cı ildə Romanın əsas meydanlarından olan Piazza di Spagna meydanında McDonald's restoranın açılmasına etiraz olaraq başlanan hərakat ilk olaraq "fast food" mədəniyyətinə qarşı olsa da daha sonralar digər sahələrə də siraət etmişdir. 1989-cu ildə İtaliyanın Bardo qəsəbəsində yazıçı Karlo Petrininin rəhbərliyi altında "Slow Food Birliyi" yaradılmışdır. Bugün "slow food" hərakatının 100 mindən artıq üzvü, 100-dən çox ölkədə nümayəndəliyi mövcuddur. Növbəti illərdə ölkələr arasında bağlanan siyasi və iqtisadi sazişlər, "bir qütblü" qloballaşma prosesinə zəmin yaratdığı və yoxsul ölkələrin maddi sərvətləri hesabına inkişaf etmiş ölkələri daha da zənginləşdirəcəyi əsas götürülərək müxtəlif etirazlarla qarşılanmışdır. Çünki qloballaşma prosesinə qarşı ən əsas tənqidi düşüncələrdən biri də qloballaşmanın tək qütblü həyata keçirilməsi idi. [34, s.889]

Bu sazişlərə misal olaraq üç şimali Amerika ölkəsi – ABŞ, Kanada və Meksika arasında 1992-

ci ildə imzalanmış Şimali Amerika azad ticarət zonası haqqında Sazişini (NAFTA) göstərmək olar. Bu saziş hər üç ölkədə, xüsusilədə Meksikada ciddi reaksiyalara səbəb olmuş və etirazlarla qarşılanmışdır. 1994-cü ildə NAFTA-ya qarşı Meksikanın Çiapas ştatında əksəriyyəti kasıb xalq kütlələrindən ibarət hərakat başlandı. Liderliyini Subkomandante Markosun həyata keçirdiyi Zapatista Milli Azadlıq Ordusu (EZLN) qloballaşma adı altında imperializm və müstəmləkəçiliyin yayılmasına "Ya Basta!" (Artıq yetər!) deyərək NAFTA-ya qarşı çıxmışdır. Anti-qlobalistlərin əsas etiraz mövzularından biri də ingilis dilində "sweatshop" - hərfi tərcümədə mənası "tər emalatxanası" olan işçilərin sığortasız, zərərli, pis əmək şəraiti olan iş yerlərində az əmək haqqı ilə işlədilməsidir. Bu müəssisələr hesabına üçüncü dünya ölkələrinin vətəndaşları əlavə əmək haqqı ödənilmədən normadan artıq işləyərək transmilli korporasiyalar kimi tanınan qlobal şirkələri işçi xərcindən azad edirlər. Bu "tər emalatxanaları"-na Meksika, Hindistan, Banqladeş, Malaziya, İndoneziya, Şimali Koreya, Flippin və xüsusilədə Çin kimi ucuz işçi qüvvəsi olan ölkələrdə rast gəlmək olar. Bu ölkələrdə işçilərin fundamental hüquqlarının pozulmasına səbəb olan "tər emalatxanaları" Avropa və Şimali Amerikada da işsizliyin artmasına gətirib çıxarır. Çünki böyük şirkətlər istehsal müəssisələrini işçi qüvvəsinin ucuz olduğu ölkələrdə yaratmağa üstünlük verirlər. Jurnalist Andryu Ross tərəfindən "tər emalatxanaları ili" adı verdiyi 1995-1996-cı illərdə ABŞ və Kanadada "tər emalatxanalarına" qarşı kütləvi kompaniyalar həyata keçirilmişdir. Anti-qloballaşma hərakatına digər bir misal olaraq ötən əsrin sonunda İngiltərədə təşkil olunan "Jubilee" kompaniyasını göstərə bilərik. 1990-cı illərin sonunda bu kompaniya kasıb ölkələrin varlı ölkələrə olan borclarının silinməsi üçün milyonlarla imza toplayır və nümayişlər təşkil edir. Adını İncildəki borcların bağışlanmasını tövsiyyə edən "Jubilee" məfhumundan götürən bu kompaniya üçüncü dünya ölkələrinin borclarının silinməsi üçün beynəlxalq rəy formalaşdırmağa çalışırdı. 15-17 may 1998-ci ildə İngiltərənin Birminqem şəhərində keçiriləcək 24-cü G8 Sammiti ərəfəsində "Jubilee" kompaniyasının təşkilatçılığı ilə on minlərlə insan "Borc zəncirlərini qırmaq üçün, insan zənciri yaradın" şüarı ilə küçələrə axışdı. Hər yaşdan və cəmiyyətin hər təbəqəsindən olan 70 min nəfərlik kütlə Birminqem şəhərində böyük etiraz aksiyası keçirmişdir. Anti-qlobalistlər öz etirazlarının kuliminasiyasına 1999-cu ildə ABŞ-ın Sietl şəhərində keçirilən aksiyada çatdılar. Belə ki, 1999-cu ilin sonunda ABŞ-ın Vaşinqton ştatında yerləşən Sietl şəhərində keçirilən Ümumdünya Ticarət Təşkilatının nazirlərin üçüncü sammiti etirazçılar tərəfindən kütləvi nümayişlərlə qarşılandı. ÜTT-nin Millenium zirvəsi adlandırılan üçüncü nazirlər sammitinə ev sahibliyi edən Sietl şəhəri həmdə ABŞ-ın texnologiya mərkəzləri sırasındadır. Bir çox nəhəng şirkətlərin mərkəzi bu şəhərdə yerləşir. Nümayişçilər "Nike", "Adidas", "Starbucks", "McDonalds" kimi bir çox dünya markalarının və bankların ofis binalarına hücum etdilər. Beləliklə polislə nümayişçilər arasında qarşıdurma yarandı. 29 noyabr – 3 dekabr tarixlərində baş verən bu hadisələr mediada və bəzi ədəbiyyatlarda "Sietl döyüşü" də adlandırılır. Mitinqlər, küçə yürüşləri və polislə nümayişçilər arasında qarşıdurmalar səbəbindən çətinliklə keçirilən sammit uğursuzluqla nəticələndi. Üçüncü dünya ölkələri və "Dördlük" adlandırılan ABŞ, Kanada, Yaponiya və Avropa İttifaqı arasında razılıq əldə olunmadı. Məhz bu sammitdə üçüncü dünya ölkələrinin nümayəndələri təklif olunan sazişdən gözlədiklərindən daha az mənfəət qazanacaqlarını anladılar. Xüsusilə də Afrika ölkələrinin nazirləri küçədəki nümayişçilərlə eyni mövqe nümayiş etdirdilər. Anti-qloballaşma hərakatının 1999-cu ildə Sietl hadisələrində həm dünya liderlərini, həm də media və ictimaiyyəti təəccübləndirən əsas xüsusiyyəti kilsə qruplarından anarxistlərə, həmkarlar ittifaqlarından təbiət mühafizəçilərinə qədər müxtəlif məramlı qrupları bir məqsəd altında birləşdirməsi idi. Elə bu səbəbdən kanadalı yazıçı və aktivist Naomi Kleyn iştirakçısı olduğu anti-qloballaşma hərakatını bir çox hərakatı özündə birləşdirən bir hərakat – "koalisiyalar koalisiyası" adlandırmışdır.

20-22 İyul 2001-ci il tarixində İtaliyanın Genuya şəhərində təşkil olunan 27-ci G8 ölkələri sammiti zamanı Sietl hadisələrinin davamı yaşandı. 300 minə yaxın nümayişçi küçələrə axın etdi və bu sammitə öz etirazlarını bildirdi. Polislə yaşanan qarşıdurmalarda 23 yaşlı nümayişçi həyatını itirdi. 15 fevral 2003-cü ildə ÜTT-nin Meksikanın Kankun şəhərində keçirilən toplantısı da küçə nümayişləri və etirazlarla müşayiət

olundu. Maykl Hardt və Antonio Neqrinin 2000-ci ildə nəşr olunan "İmperiya" adlı kitablarında mövcud qloballaşma prosesini imperiyaya bənzətmiş və ona qarşı yeni internasionala ehtiyac olduğunu qeyd etmişlər. 2004-cü ildə nəşr etdirdikləri "Assembleya" adlı kitabda isə anti-qloballaşma hərakatının əvvəlki kitabda tələb etdikləri yeni internasionalın praktik nümunəsi olduğunu bildirmişlər. Corc Sorosun fikrincə kapitalizmin meydana gətirdiyi ədalətsiz şərait anti-qloballaşma hərakatının təşkil etdiyi etirazlara haqq qazandırır. Yanvar 2001-ci ildə Braziliyanın Porto Alegre şəhərində təşkil olunmuş Dünya Sosial Forumu "başqa bir dünya mümkündür" şüarı ilə diqqətləri sosial problemlərə çəkməyi hədəfə almışdır. Davos Forumuna qarşı 25-30 yanvar 2001-ci ildə təşkil olunan Dünya Sosial Forumunda 120 ölkədən 4000-ə yaxın nümayəndə iştirak etdi. Elə həmin il Davos və Port Alegre arasında görüntülü bağlantı yaradıldı və fikir mübadiləsi aparıldı. Sonralar regional sosial forumlar : Avropa, Amerika, Asiya, Afrika, Aralıq dənizi sosial forumları təşkil olundu. Avropa sosial forumu öz məramlarını izah etmək üçün anti-qloballaşma ifadəsi əvəzinə "alternativ qloballaşma" şüarını istifadə etmişdir. Həmçinin, anti-qloballaşma hərəkatının aktivistlərindən olan, antropoloq və anarxist David Graberin fikrinə görə anti-qloballaşma termini ABŞ mediası tərəfindən "icad edilmişdir" və hərəkat iştirakçıları uğrunda mübarizə apardıqları hərəkatı daha çox "hərəkatlar hərəkatı", "qlobal ədalət hərakatı", "fərqli qloballaşma hərakatı" olaraq adlandırmağa üstünlük verirlər. Qloballaşma əleyhdarları ümumi olaraq qloballaşmanın bütün istiqamətlərinə qarşı deyillər. Onlar idmanın, ünsiyyətin, internetin, texnologiyanın qloballaşmasına müsbət yanaşaraq, əsas problemlərin məhz investisiyaların qloballaşmasından yarandığını qeyd edirlər. Qloballaşma əleyhdarlarına görə bu anlayış böhran vəziyyətində olan kapitalist sərmayənin kasıb ölkələrin resurslarını istismar etmək üçün istifadə etdiyi saxta bir anlayışdır. [35, s.48] Bununla da onlar bütünlüklə qloballaşma prosesinə qarşı deyil, qloballaşma adı altında həyata keçirilən istismara qarşı çıxdıqlarını bəyan edirlər. Qloballaşmanın ancaq mənfi cəhətlərini şişirdənləri Davos Dünya İqtisadi forumunda Meksika prezidenti Ernesto Zedillo "qlobalofobik" (qloballaşmadan qorxanlar) adlandırmışdır. [35, s.34] Fridmanın fikrincə qlobal bazar biznes sahəsində limitsiz imkanlar yaratmaqla bərabər yerli mədəniyyətlər və ətraf mühit üçün ciddi təhlükəyə çevrilir. O özünün "Leksus və Zeytun ağacı: Qloballaşmanı anlamaq" adlı kitabında Leksus avtomobili və Zeytun ağacının timsalında insanın qlobal bazarda iştirak edib zənginləşmə arzusu ilə onun öz milli və yerli dəyərlərinə bağlılığını qarşılaşdırır. O qeyd edir ki, qloballaşmanın gələcəyi bu iki meylin barışmasından asılıdır. [36, s.261]

**Nəticə**

Qloballaşmanı mənfi və ya müsbət cəhətdən qiymətləndirən bütün bu nəzəriyyə və yanaşmaların fonunda qeyd edə bilərik ki, qloballaşma özlüyündə yaxşı və ya pis deyil. Müasir texnologiyanın inkişafı ilə daha da sürətlənən bu proses həm də bir fürsət və vasitə kimi qiymətləndirilməlidir. Texnoloji yeniliklər sayəsində investisiyalar, əmtəə və xidmətlər sərhədləri aşaraq daha sürətlə hərəkət edir, ölkələrin insan resursları isə qlobal əmək bazarında dəyərləndirilir. Bu qeyd edilən müsbət hallarla yanaşı qloballaşma adı altında qərbin xüsusilə də ABŞ-ın kor-koranə təqlidi, transmilli korporasiyalar tərəfindən ölkə bazarların ələ keçirilməsi, yerli şirkətlərin sıxışdırılması, kasıb ölkələrin asılı hala salınması, əmək istismarı və s. hallara da rast gəlinir.

Yuxarı da qeyd etdiyimiz kimi qloballaşma heç bir dövlətdən asılı olmadan davam edən və rəqəmsallaşma ilə daha da sürətlənən bir prosesdir. Onun necəliyi isə ona olan yanaşmadan və ondan istifadədən asılıdır. Bu "vasitə"-dən supergüclərin istismar aləti kimi deyil, bütün ölkələr üçün qarşılıqlı inteqrasiya və yeni bazarlara çıxış və inkişaf aləti kimi istifadə olunmalıdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1) Afat, E. Karşı küreselleşme hareketi:küreselleşmeyi hedef alan küresel muhalefet. İstanbul, 2010

2) Karabıçak, M. Küreselleşme Sürecinde Gelişmekte Olan Ülke Ekonomilerinde Ortaya Çıkan Yönelim ve Tepkiler, 2002

3) Economist, T. Globalisation. The Economist, https://www.economist.com/news/2009/07/20/globalisation, 2009

4) HELD, D. A. Küresel Dönüşümler, Siyaset, Ekonomi ve Kültür. Ankara: 2006.

5) L.Friedman, T. The Lexus and Olive Tree. New York: Farrar, Straus and Giroux, 2001
6) Fındıkçı, A. Dünya Ekonomisi Küresel-leşmenin Neresinde? Uluslararası İlişkiler Dergisi, 21-49, 2006
7) Ellwood, W. Küreselleşmeyi Anlama Kılavuzu. İstanbul, 2002
8) Ohmae, K. Görünmeyen kıta : yeni ekonominin dört stratejik buyruğu. İstanbul: Türk Henkel Dergisi Yayınları, 2000
9) Temiz, H. E. Küreselleşmenin sosyal boyutları ve türkiye açısından etkileri. Ankara: Genel-İş Matbaası, 2004
10) Vəliyev, D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu nəşriyyatı, 2008
11) Əsədov, A. Günümüzün fenomeni: Qloballaşma. Azərbaycan qloballaşma prosesinə hazırlığa haradan başlamalıdır. “Qloballaşan Azərbaycan” Sivil İnkişaf Mərkəzi, 2006
12) Rıdvan.S.Karluk. Uluslararası Ekonomi, Teori ve Politika. İstanbul: Beta Basım Yayım, 2003
13) Zengingönül, O. Yoksulluk Gelişmişlik Ve İşgücü Piyasaları Ekseninde Küreselleşme. Ankara: Adres Yayınları, 2004
14) Cebeci, İ. Küreselleşme yaklaşımları kapsamında küreselleşme sürecinin tarihsel değerlendirmesi. İstanbul Universitesi Sosyoloji Konferansları Dergisi, 6., 2011
15) Bozkurt, V. Küreselleşmenin insani yüzü. İstanbul: Alfa Basım Yayım Dağ, 2000
16) Boratav, K. Emperyalizmin Yeni Masalı Küreselleşme. Ankara: İmge Kitabevi Yayınları, 1997
17) Tatar, T. Kürede dönen siyaset. İstanbul: Doğu Kütüphanesi Yayınları, 2008
18) Dicle, A. Küresellesme: Nedenler, Sonuçlar ve Tepkiler. Ekonomik Forum, 2000
19) James Petras, Henry Veltmeyer. 21. Yüzyılda Emperyalizm Maskesi Düşürülen Küreselleşme. İstanbul: Mephisto Yayınları, 2006
20) Başkaya, F. Sömürgecilik Emperyalizm ve Küreselleşme. Ankara: Öteki Yayınları, 1997
21) Sztumskı, W. Globalisation. The Journal of International Issues, 10-23, 2014
22) Giddens, A. Sociology. Polity Press, 2001
23) Xing, L. Capitalism and Globalisation in the Light of the Communist Manifesto. Economic and Political Weekly, 15-28, 1998
24) Griffin, K. Globalization and the Shape of Things to Come. Studies in Development Strategy and Systemic Transformation, 33–52, 2000
25) Paul Hırst & Grahame Thompson. Küreselleşme sorgulanıyor. Ankara: DOST, 2007
26) Don Kalb, Marco Van Der Land , Richard Staring. The Ends of Globalization: Bringing Society Back In. Maryland: Rowman & Littlefield Publishers, 2000
27) Ritzer, G. The McDonaldization Thesis: Explorations and Extensions. SAGE Publications Ltd, 1998
28) Jovanović, M. N. Is Globalisation Taking us for a Ride? Journal of Economic Integration, 501-549, 2010
29) Robertson, R. Globalization: Social Theory and Global Culture. London: Sage, 1992
30) Bayrakdar, M.. Küreselleşme ve Küreselleştirme. Dini Araştırmalar, 149-162, 2003
31) Soros, G. Küresellesme Üzerine. İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları, 2003
32) Murat ÜNAL , Y. Sinan ZAVALSIZ . Küreselleşme Karşıtı Bir Hareket: Yavaş Hareketi . İnsan ve toplum bilimleri araştırmaları dergisi , 889-912, 2016
33) Çetin, B. N. Küreselleşme olgusunun farklı boyutlarıyla toplumsal yansıması: Küreselleşme karşıtı hareketler (Türkiye örneği). Elazığ, 2008
34) Pattas, C. The Lexus and the Olive Tree by Thomas Friedman Review. A Journal of Policy Analysis and Reform, 261-263, 2000

**Aliaga Bayram oghlu AZIMZADE**
Doctoral student of Western Caspian University
E-mail: eliaga.ezimzade.phd@wcu.edu
ORCID ID - 0000-0001-5071-2418

## COMPARATIVE ANALYSIS OF THEORETICAL VIEWS ON GLOBALIZATION

**Summary**

The technological development of the 21st century has accelerated the process of globalization by shortening the distances and increasing the circulation of money and goods. The concept of globalization, which appeared in the middle of the last century, is used today in many fields in different meanings. The reason for this is the existence of different ideas and approaches about globalization. In some theoretical views, globalization is evaluated as a positive integration process that brings countries and people closer, but there are also many who see globalization as "Americanization", "a new stage of capitalism", and "Westernization". The article briefly reviews the history of the concept of globalization and shows various definitions that express different approaches to globalization. Approaches to globalization are divided into three main groups, including extreme globalization supporters who see globalization as a new phase of history, those who see it as a process that existed in the past, and those who believe that it will change the existing system. Those who are critical of the globalization process and want to see it not as a unipolar process but as a process of mutual integration have united under the name of the anti-globalization movement. The article looks at the history of the anti-globalization movement, the claims of the participants of the movement against globalization and the goals of the movement are mentioned. Because the participants of the anti-globalization movement are not completely against globalization. On the contrary, they are in favor of promoting the integration of economy, technology, and cultures. This group, known as anti-globalists, opposes the implementation of imperialist policies under globalization. Both pro-globalization and anti-globalization advocates recognize globalization as an opportunity and emphasize its proper use for human well-being and the achievement of universal goals.

**Keywords:** Globalization, anti-globalization, hyperglobalists, skeptics, transformers

**Алиага Байрам оглы АЗИМЗАДЕ**
Докторант Западно-Каспийского университета
E-mail: eliaga.ezimzade.phd@wcu.edu
ORCID ID - 0000-0001-5071-2418

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ТЕОРЕТИЧЕСКИХ ВЗГЛЯДОВ НА ГЛОБАЛИЗАЦИЮ

**Резюме**

Технологическое развитие XXI века ускорило процесс глобализации, сократив расстояния и увеличив обращение денег и товаров. Понятие глобализации, появившееся в середине прошлого века, сегодня используется во многих сферах в разных значениях. Причиной этого является существование различных идей и подходов к глобализации. В некоторых теоретических взглядах глобализация оценивается как позитивный интеграционный процесс, сближающий страны и людей, но есть также многие, кто рассматривает глобализацию как «американизацию», «новую стадию капитализма» и «вестернизацию». В статье кратко рассматривается история понятия глобализации и показаны различные определения, выражающие разные подходы к глобализации. Подходы к глобализации делятся на три основные группы, включая крайних сторонников глобализации, которые рассматривают глобализацию как новую фазу истории, тех, кто рассматривает ее как процесс, существовавший в прошлом, и тех, кто считает, что она изменит существующую систему. Те, кто критикует процесс глобализации и хочет видеть его не как однополярный процесс, а как процесс взаимной интеграции, объединились под именем антиглобалистского движения. В статье рассматривается история антиглобалистского

движения, упоминаются претензии участников движения против глобализации и цели движения. Потому что участники антиглобалистского движения не являются полностью против глобализации. Напротив, они выступают за содействие интеграции экономики, технологий и культур. Эта группа, известная как антиглобалисты, выступает против проведения империалистической политики в условиях глобализации. Сторонники как сторонников глобализации, так и противников глобализации признают глобализацию как возможность и подчеркивают ее правильное использование для благосостояния людей и достижения универсальных целей.

**Ключевые слова:** Глобализация, антиглобализация, гиперглобалисты, скептики, преобразователи.